# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№268/3** **11 noyabr 2015-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Belarusiya Sertifikatlaşdırılmış Mühasiblər və Auditorlar Assosiasiyası arasında Əməkdaşlıq Sazişinin imzalanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.21-ci "Xarici ölkələrin mühasibat və audit qurumları ilə əməkdaşlıq sazişlərinin bağlanması" bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Belarusiya Sertifikatlaşdırılmış Mühasiblər və Auditorlar Assosiasiyası arasında Əməkdaşlıq Sazişinin imzalanması ilə əlaqədar Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış Saziş layihəsini Şura üzvləri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Belarusiya Sertifikatlaşdırılmış Mühasiblər və Auditorlar Assosiasiyası arasında Əməkdaşlıq Sazişinin layihəsi bəyənilsin (əlavə olunur) və Sazişin imzalanması məqsədəmüvafiq hesab edilsin.
2. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, Sazişin imzalanması ilə bağlı müvafiq işləri həyata keçirsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**